13. (https://www.resursaim.az/category/cemiyyet/news/

İnformatorlar:

1. Məmmədova Gülyetər Şimşək qızı Ağstafa rayonu Qarayazı qəsəbəsi
2. İsmayılova Maral Namaz qızı. Samux rayonu Çobanabdallı kəndi

## ДЕЙСТВИЕ МИГРАЦИОННЫХ ПРОЦЕССОВ В ГЯНДЖА-КАЗАХСКОМ РЕГИОНЕ НА ЭТНОКУЛЬТУРНЫЕ ОСОБЕННОСТИ

***Гасанова Нурана Рахиловна***

***Резюме***

В статье освещены наблюдающихся миграции и их действие на этнокультурные особенности в последные десяти лет происходящих в стране социальных, экономических и политических положениий в Гянджа- Казахском регионе . А также депортация из своих исторической родины во время 1-ой Карабахской войны и в течении тысяче лет живших в Грузии людей депортированных в Средней Азии и их возвращение на родину их роль в миграционных процессах и действие на этнокультурные особенности.

## THE IMPACT OF MIGRATION ON ETHNOCULTURAL CAHARACTERISTICS IN THE GANJA-GAZAKH REGION

***Hasanova Nurana Raxilova***

***Summary***

The article deals with migrations observed in Ganja-Gazakh region and their influence on ethnocultural features in the background of events realated to the social and political situation in our country over the past few decades.

The research briefly studies the role of our compatriots who were deported from our historical land Western Azerbaijan, expelled from their homes in the first Karabakh War, and exiled from their native lands in Georgia to Central Asia in the migration processes in the Ganja-Gazakh region and their influence on ethnocultral features.

***Rəyçi; t.e.d.,prof. Həsənbala Sadıqov***

***AMEA Diyarşünaslıq İnstitutunun 06 mart 2023-cü il tarixli iclasın 03 saylı protokolu***

***Daxil olma tarixi 29 mart 2023-cü il***

**UDK 01**

## MƏDƏNİYYƏT VƏ DÜNYAGÖRÜŞÜ

***F.ü.f.d., dosent Səlimov Mahir Məhəmmədəli oğlu***

***ADPU-nun Ağcabədi filialı***

**Xülasə.** *Məqalədə elmi ədəbiyyatda istifadə edilən "mədəniyyət" və "dünyagörüşü" anlayışlarının adekvatlılığı məsələlərinə toxunulub. Bildirilir ki, bu terminlər müəyyən fərqli anlayışlar kimi ümumi kontekstdə işlədilir. Bildirilir ki, son illərdə işlədilən "mədəniyyət" sözü istər elmi terminologiyada, istərsə də gündəlik danışıq dilimizdə, bir qayda olaraq, hazlrda nail olduğumuz nailiyyətlərin dərin tarixi köklərə malik olduğunun sübutu kimi qəbul edilməsi ilə sıx bağlıdır. Bldirilir ki, ana dilimizdə geniş istifdə olunan "dünyagörüşü" anlayışı müvafiq anlayışı kimi müəyyən bir inkişaf mərhələsi kimi qbul edilir. Məqalə müəllifinin qənatinə görə hər iki anlayış cari inkişafımzın təməl daşlarnı ehtiva edir, onların, "milli-mədəni təfəkkür", "azərbaycanlının dünyagörüşü" kimi anlaşılmasını təşviq edir.*

**Açar sözlər**: mədəniyyət, dünyagörüşü, vəhdət, vətəndaş, milli
**Ключевые слова:** культура, мировоззрение, единство, гражданин, национальное
**Key words:** culture, worldview, unity, citizen, national

Mədəniyyət maddi və mənəvi sərvətlərin yaradılmasına, mənimsənilməsinə, saxlanmasına və bölgüsünə istiqamətləndirilən ictimai münasibətlər sistemidir. Bu maddi istehsalla şərtlənən, öz mahiyyəti etibarilə sosial əhəmiyyət kəsb edən və dünyanın dəyişdirilməsinə yönəldilən yaradıcılıq prosesidir. Mədəniyyətin fəlsəfi anlayışına bir tərəfdən bəşəriyyətin konkret tarixi mərhələdə malik olduğu maddi və mənəvi sərvətlərin cəmi, digər tərəfdən mədəni fəaliyyətin həyata keçirilməsi prosesinin forma və məzmununa təsir göstərən amillər daxildir.

Mədəniyyətin insan həyatına, ictimai tərəqqiyə təsiri məsələsi nisbi səciyyə daşıyır. İnsan həyatı və əxlaqı mədəniyyətin nüfuzu nəticəsində heç də bütün hallarda zənginləşmir. Bu gün insan təbiətlə yanaşı,cəmiyyət qüvvələri qarşısında da aciz qalmışdır. Cəmiyyətin kortəbii axarı insanı fəlakətə doğru sürükləməkdədir.Bəşər elə özünün "sivilizasiyanın" təhlükəsi fonundadır.

İnsanın dünyagörüşü mürəkkəb və çətin bir yol keçmişdir. Bu yolda yüksəliş və tənəzzül dövrləri bir - birini əvəz etmiş, nəticədə bəşəriyyət daim mənəvi-əxlaqi təkmilləşmə və inkişaf yolu ilə irəliləmiş,fəaliyyət növləri ilə əlaqədar olaraq, maddi və mənəvi formalara bölünmüş mədəniyyətin inkişafı üçün baza rolunu oynamışdır.

Qeyd etmək lazımdır ki, hər bir mədəniyyət bütövdür, tamdır və qapalı orqanizmdir. Mədəniyyəti konkret bir etnos yaratdığından, o, hər şeydən əvvəl milli,yayılma arealına görə lokaldır. Lakin hər bir mədəniyyətdə bəşərilik və qloballıq olduğuna görə, aralarında əlaqə mövcuddur. Mədəniyyət yüz illərin hesabına formalaşır və tarixi mühitlə coğrafi əhatə dairəsinin vəhdəti nəticəsində bitkin, kamil bir orqanizmə çevrilir. Mədəniyyət sırf sosial hadisə olub, insanların həyat fəaliyyəti ilə əlaqədardır. Mədəniyyət prosesləri bütün ictimai hadisələrlə qarşılıqlı əlaqədə baş verir.

Mədəniyyətin anlaşılması bir qayda olaraq, tarix fəlsəfəsinə istinadən olmuşdur. Həmişə tarixi prosesdə mövcud olduğundan və yaşadığından, mədəniyyət fəlsəfəsi əksər hallarda tarix fəlsəfəsi ilə eyniləşdirilmişdir. Mədəniyyət yaradan insana mahiyyət qüvvələrini aşkar edən kimi yanaşdıqda, onun fəal yaradıcı olması, qabiliyyət və imkanlarının üzə çıxması sosial inkişafda baş verir. Sosial həyatın iqtisadi, siyasi, intellektual və mənəvi sahələrindəki nailiyyətlər mədəni praktikanın nümayişidir.

Mədəniyyət fəlsəfəsi mədəniyyətin rəngarəng və sonsuz olan ümumnəzəri əsaslarını ehtiva edir, bəşər təcrübəsinin müxtəlif parametrlərindəki nailiyyətlərini, hər bir fərdin mədəniyyət ünsiyyətinin müxtəlif normalarını və növlərini fəsəfi cəhətdən mənimsəyir. Mədəniyyət fəsəfəsi insan varlığının gözlənilməz və təkrarlanan paradoks və dilemmalarını aşkar edir, fikrən canlandırır.

Müasir fəlsəfə tarixində mədəniyyətə iki - məhdud və geniş yanaşma mövcuddur. Məhdud bu və ya digər icmalara xas olan kollektiv fikirlərin, dəyərlərin, nomaların sistemi kimi izah edilir. Geniş mənada mədəniyyət bütün bəşəriyyəti əhatə edən nailiyyətdir.

Sosial - tarixi faktorları zəminində və elmi biliyə əsasən yaradılan mədəniyyət fəlsəfəsi mədəniyyəti sosial fenomen kimi kompleks şəkildə öyrənməyi, onun bilik sistemində tutduğu yeri müəyyənləşdirməyi, yerinə yetirdiyi funksiyaları və sosial həyatdakı rolunu aşkar etməyi qarşıya qoyur və tədqiqat obyektinə çevirir.

Mədəniyyəti çox vaxt müasir fəlsəfənin və fəlsəfə tarixi sahəsində biliklərə yiyələnməklə anlayırlar. Mədəniyyətdə başlıca cəhət bilik, fəlsəfə hesab olunur, onun qanun və kateqoriyaların elmi vəzifələrin həllinə tətbiq bacarığı əsas götürülür.

Sovet fəlsəfəsi və filosofları məktəblərdən ən çox biliyi artırmağa fikir verirdilər. Fəlsəfənin yaradıcılığa tətbiq etmək bacarığı isə formalaşdırılmamışdır. Bu isə müstəqil, yaradıcılıqla düşünmək və fəaliyyət göstərmək bacarığına malik olmağa çətinik yaradırdı.

“Mədəniyyət” anlayışı insanın öz tarixini anlaması üçün qanunauyğun bir mərhələ olub, yaradılanların ilk yaranmışlardan, insanlığın təbiətdən, mənəvinin instinkdən fərqləndirməsinə imkan verilmişdir. Tələbat - prosesdə təbiətin yenidən dəyişdirilərilərək, ehtiyaclarına tabe etdirilməsi, insanın öz nailiyyətlərini dərk etməsi olmuşdur.

Fəlsəfi sistemlərdə və təlimlərdə təkcə bəşəriyyətin intellektual deyil, dünyagörüşü və estetik təcrübəsi də cəmləşmişdir. Fəlsəfi problemlərin ağırlıq mərkəzi insan həyatının məna və məqsədi üzərinə düşür. Bura həqiqət və dəyərlərin axtarışı və təsdiqi də daxildir. İnsanı əhatə edənlərlə fəlsəfəni elə belə deyil, xarici şəraiti kimi maraqlandırır və göstərir ki, dünyada necə və hansı ali məqsədlər naminə yaşamaq lazımdır. Bununla yalnız azad, hüquqlara malik olan, məsuliyyəti dərk edən insan maraqlana bilər.

Mədəniyyət sırf sosial hadisə olub, insanların dünyagörüşü, həyat fəaliyyəti ilə əlaqədardır. Cəmiyyətdə mədəni və sosial birlik yalnız onun aşağı pilləsində mövcud olmuşdur. Əmək bölgüsündən sonra, yəni əkinçiliklə maldarlıq, sənətkarlıqla ticarət ayrıldıqdan sonra sosial problemlər həll olunmağa başlayır. Doğrudur, mədəniyyət prosesləri bütün ictimai hadisələrlə qarşılıqlı əlaqədar baş verir, lakin bütün hallarda mədəniyyət spesifik cəhətlərə malik olur, özündə ümumbəşəri dəyərləri cəmləşdirir. Bu zaman mədəni yaradıcılıq tarixi yaradıcılıqla üst - üstə düşmür. Səbəbini başa düşməkdən ötrü maddi və mənəvi mədəniyyətləri bir - birindən fərqləndirmək lazımdır. Maddi mədəniyyət - insan əməyi və zəkası ilə yaradılımış sərvətlərin məcmusudur; istehsal vasitələri, ictimai varlığın əsası, insanın təbii gerçəkliyi mənimsəməsinin göstəricisidir.Yaşayış vasitələri – binalar, paltar, memarlıq nümunələri, körpülər, kanallar, meşə zolaqları, bitki və heyvan növləri və s. buraya daxildir. Mənəvi mədəniyyət isə ənəvi mədəniyyət isə hər şeydən əvvəl, elm və onun nailiyyətlərinin istehsal prosesinin davranış normalarını, adətlər, ənənələr, adamların tələbatı və mənafelərin inkişaf səviyyəsini əhatə edir.

Problemlərin hamısı mədəniyyətin tarixi taleyinin müzakirə edilməsini, hansının saxlanıb - saxlanılmamasını, hansı hüquqa malik olmasını, suverən və qeyri - suverenliyini, ümumdünya xarakterini dərindən öyrənməyi qarşıya qoyur. Mədəniyyət fəlsəfəsi özünə tənqidi surətdə yanaşmağı, öz bilik və idrak ehtiyatlarından maksimum səmərəli istifadə etməyi tələb edir.

İctimai istehsal prosesi yalnız sərvətləri aratmaqla yanaşı, müvafiq münasibətlər sistemi vasitəsilə subyektin təbiətini də formalaşdırır ki, bu, axırda maddi mədəniyyətin inkişafında çox mühüm rol oynayır. Cəmiyyətdə insanın mənəvi gerilməsi onun maddi yoxsullaşmasına gətirib çıxarır. Dünyada milli mədəniyyətlərin qarşılıqlı surətdə bir - birini zənginləşdirib yaxınlaşması insanların maddi tələbatının daha dolğun ödənilməsində, onların ümumi mədəni səviyyəsinin - mədəniyyətinin yüksəldilməsində çox böyük əhəmiyyətə malikdir.

Müəyyən səciyyəyə malik, obyektiv gerçəkliyi təşkil edən mühit özünün bütün cəhətləri ilə insanın şüuruna estetik təsir göstərir, onun bədii - obrazın təfəkkürünün yaranmasına kömək edir. İnsan şəhər və kənd salarkən, ev tikərkən, məişət əşyaları hazırlayarkən estetik baxışlar, zövqlər, hisslər fəal iştirak edir və onun kamilləşməsinə səbəb olur. Gözəllik yaşayışı cazibədar edir, ona ahəngdarlıq gətirir və adamlara üzvi hisslər, vərdişlər aşılayır.

Estetik əsasların təşəkkülü və inkişafı insanın bütün cəhətlərini - maddi, mənəvi, ictimai və şəxsi həyatını əhatə edir.

Maddi mədəniyyətin yeni qlobal forma və cəhətlərinin eydana gəlməsi millətlərin ən yaxşı nailiyyətləri əks etməsi əsasında baş verir. Ayrı - ayrı millətlərə xas olan cəhətlər başqa ölkələrə nüfuz edərək qloballaşma məzmunu kəsb edir, milli formaya bürünərək həmin ölkə mədəniyyətinin tərkib hissəsinə çevrilir. Xalqlar arasında maddi və mənəvi nailiyyətlərin mübadiləsi milli, tarixən qərarlaşmış qapalılığını aradan qaldırır, aralarında ümumi cəhətlər yaradır. Maddi mədəniyyətin qloballaşması özünü yeni ənənələrinin təşəkkülündə və millətlərarası ünsiyyətin geniş yayılmasında tapır.

İnkişaf etmiş cəmiyyətlərdə elmi - texniki inqilabın üstünlükləri ilə getdikcə daha geniş surətdə əlaqələndirdiyi bir şəraitdə adamların mənəvi təlabatı - elmə, texnikaya, incəsənətə yiyələnmək həvəsi durmadan artır. Bu isə şəxsiyyətin hərtərəfli kamilləşməsinə, onun yaradıcı fəallığının durmadan artmasına və mənəvi aləminin daha da zənginləşməsinə səbəb olur.

Maddi mədəniyyətdə estetik əsasların inkişafından bəhs edərkən insan münasibətlərinin inkişafının ifadəsi olan tarixi varislik əlaqəsinin rolunu da qeyd etmək lazımdır. Göstərilən sahənin varislik əlaqəsi nəticəsində əvvəlki nəsillərin maddi mədəniyyətdə əldə etdikləri nailiyyətlər sonrakı nəsillərin malı olur, onlara xidmət edir.

Mənəvi fəaliyyət insan münasibətinin tərkib hissəsi olduğundan, maddi mədəniyyət də estetikanın formalaşmasına mühüm dərəcədə təsir göstərir.

Bütün gerçəkilik hadisələrinin, o cümlədən də maddi şeylərinin estetik cəhətdən qiymətləndirilməsi estetik hisslərin inişaf mövcudluğunu nəzərdə tutur. Mühakimənin, rəyin təzahürü kimi çıxış etməsinə baxmayaraq, ictimai xarakter mövqeyi əks etdirdikdə əsl estetik qiymətləndirməyə çevrilir. Estetik qiymətləndirmə cəmiyyətdə ümumbəşəri ünsürlərə malik olmaqla bərabər, özündə milli xüsusiyyətləri əks etdirir.

Maddi mədəniyyətin estetik təşkilində tətbiqi, dekoratik və monemental incəsənətin rolu böyükdür. Çünki onlar incəsənət əsərləri olmaqla yanaşı, eyni zamanda maddi mədəniyyətin ayrılmaz hissəsidir.

Simmetrikliyi və ahəngdarlığı, sadəlik və əzəməti insanın hisslərini fəallaşdırdığından arxitektura da maddi mədəniyyətin estetikasının təşəkkülü və inkişafının mühüm amillərindən biri kimi çıxış edir. Quruculuq prosesində salınan şəhərlərin planlaşdırılması və tikilməsi, mövcudların yenidən qurulması, kəndlərin və rayon mərkəzlərinin abadlaşdırılması, şəhərtipli qəsəbələrin salınması, çoxlu mədəni - maarif müəssisələri, tibb ocaqları, yaşayış binalarının ucaldılması maddi mədəniyyəti əhəmiyyətli dərəcədə yaxşılaşdırır.

Maddi mədəniyyətin estetik əsaslarının inkişafı həm adamlar arasında münasibətlərin, həm fərdin davranışını, həm də şəxsiyyətin özündə, münasibətində hərəkətlərinin gözəlliyini ifadə edir.

Cəmiyyətin, onun həyat tərzinin gözəlliyi isə mədəniyyət prinsipi üzərində qurulur. Bizim həyat tərzimizin ahəngdarlığı və gözəlliyi məhz həmin prinsipin adamların əqidəsinə, davranış normasına çevrilməsindən asılıdır.

Davranış gözəlliyi əxlaqın və mənəvi mədəniyyətin ifadə formasıdır. İnsanda davranış daxili mədəniyyətlə xarici mədəniyyətin vəhdətini  təşkil edir. Etik və estetik cəhətlərin birliyi, həmçinin daxili və xarici mədəniyyətin vəhdətində təzahür edir.

İqtisadiyyatın inkişafında maddi mədəniyyət mühüm yer tutur. Adamların məişətini bəzəyən, ev əməyini yüngülləşdirən malların satışını, reklamını qeyd etmək olar. Hazırda alıcılar gözəl, dəbdə olanları alır, aldıqlarının estetik dəyərinə, faydalalığına ciddi diqqət yetirirlər. İctimai xidmət işçilərinin estetik əsasların inkişafındakı rolu, həmçinin onların davranış mədəniyyəti ilə əlaqədardır. Çünki insan öz davranışında, hərəkətlərində həyat tərzinin sərt qanunlarına və tələblərinə tabe olur, ehtiyaclarına uyğun təlabatlarını ödəmək istiyir. Bu hal həm maddi, həm də mənəvi təlabat sahəsini əhatə edir.

İnsanların estetik zövqünü oxşayan, təlabatlarını təmin edən əsl incəsənət çox vaxt həyata daxil ola bilmir. Beləliklə, hazırda insana məişət təlabatlarını ödəmək üçün onun arzu etdiyi deyil, kapital üçün faydalı olan, mənfəət gətirən zorla qəbul etdirilir. Bəzi müasir incəsənət növləri insanların zövqündə, münasibətində, davranışında tənəzzül yaradır ki, bu da həmin sahənin ictimai - siyasi xarakterindən, mənasından və məqsədindən irəli gəlir.

**Nəticə.** Maddi mədəniyyətin ayrılmaz cəhəti olmaq etibarilə məişət estetikasının da özünəməxsus inkişaf qanunları vardır. Məişət estetikası, ümumiyyətlə, gerçəkliyin mənimsənilməsini prosesinin tərkib hissəsi, onun dərk edilməsi və dəyişdirilməsidir. Buna görə də, məişətdə estetik əsaslarn inkişaf qanunauyğunluqları bir tərəfdən məişətin inkişaf qanunlarının araşdırılması, digər tərəfdən isə insanın bədii mədəniyyətinin meydana gəlməsi

prosesinin təhlili əsasında öyrənilə bilər. İnsan yalnız ən zəruri şeyləri istehsal edərkən onların hisslərinin ahəngdarlığına diqqət verməyi öyrənmiş, yaratdığı şeylərin təyinatına uyğun gəlməsinə çalışmışdır. Faydalı şeylərin istehsalı prosesinə insanın şüurlu münasibəti özündə subyektiv münasibətinin ünsürlərini daşıdığından, məhz həmin proses onun bədii fəaliyyətinin meydana gəlməsini şərtləndirir. İnsan təlabatının meydana gəlməsi və inkişafı da nəticə etibarilə ictimai pratika ilə əlaqədardır. Lakin həmin təlabatların ödənilməsi məhsuldar qüvvələrin inkişaf səviyyəsinə uyğun olmur. Bu isə hər bir cəmiyyətin xarakterindən və bunun zəruri nəticəsi olaraq şəxsin cəmiyyətdəki vəziyyətindən, onun istehsal vasitələrinə münasibətindən aslıdır. Maddi mədəniyyətin insan həyatının ayrılmaz tərkib hissəsinə çevrilməsi tarixi, eyni zamanda estetik hisslərin təşəkkülü və inkişafı tarixidir. Estetik hisslərin təşəkkülü və inkişafı da ictimai - tarixi təcrübənin məhsuludur. Onların təkamülü təkcə məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə deyil, həm də ictimai münasibətlərin insanların ümumi həyat şəraiti, mədəniyyətin xarakteri ilə səciyyələnir.

Adamların maddi mədəniyyətinin yüksəlməsində milli mədəniyyətlərin sürətlə inkişaf etməsi və onların bir - birini qarşılıqlı surətdə zənginləşdirilməsi də çox mühüm rola malikdir.

Milli mədəniyyətlərin bir - birinə yaxınlaşması və onların əsasınının möhkəmlənməsi nəticə etibarilə qloballaşmış cəmiyyətin vahid mədəniyyətinin təşəkkülünə gətirib çıxaracaqdır.

***Ədəbiyyat***


1. Şükürov A.M. Kultrologiya. Bakı: Adiloğlu,1997, 280 s.
2. Ekologiya,fəlsəfə, mədəniyyət jurnalı.Bakı № 43,2006,150 s.
3. Paşayev B.Ə. Mədəniyyət fəlsəfəsi.Bakı: Səda, 1999. 200 s.
4. Qloballaşma və Azərbaycan mədəniyyəti. /Respublika elmi - praktik konfransın materialları. Bakı: Təknur, 2004, 225 səhifə.
5. Elmi əsərlər jurnalı. Bakı, № 1, 2007, 206 s.
6. YUNESKO - nun təsis etdiyi "Ümumdünya fəlsəfə günü"nə həsr edilmiş respublika elmi - nəzəri konfransın materialları.Bakı: Təknur, 2006. 360 s.
7. Tağıyev Ə., Əliyev Q. Kultorologiya. Bakı: Təbib, 1997, 96 s.
8. Филолсофский словарь.М: Москва издательство политической литературы, 1986, 590


## КУЛЬТУРА И МИРОВОЗЗРЕНИЕ

***doцент Салимов Махир Магамедали***

***Резюме***

В статье рассматриваются вопросы адекватности понятий «культура» и «мировоззрение», используемых в научной литературе. Утверждается, что эти термины используются в общем контексте как отдельные понятия. Сообщается, что употребляемое в последние годы слово «культура» как в научной терминологии, так и в нашем повседневном языке обычно тесно связано с тем, что достижения, достигнутые нами в прошлом, воспринимаются как доказательство того, что они имеют глубокие исторические корни. Отмечается, что понятие «мировоззрение», широко употребляемое в нашем родном языке, принимается как некий этап развития. По мнению автора статьи, обе концепции содержат краеугольные камни нашего нынешнего развития и способствуют их пониманию как «национально-культурное мышление» и « мировоззрение азербайджанство».

## CULTURE AND WORLDVIEW

***Associate Professor Salimov Mahir Mammadali***

***Summary***

The article deals with the issues of the adequacy of the concepts of "culture" and "worldview" used in the scientific literature. It is argued that these terms are used in a general context as separate concepts. It is reported that the use of the word "culture" in recent years, both in scientific terminology and in our everyday language, is usually closely related to the fact that the achievements we have made in the past are taken as evidence that they have deep historical roots. It is noted that the concept of "worldview", widely used in our native language, is accepted as a certain stage of development. According to the author of the article, both concepts contain the cornerstones of our current development and contribute to their understanding as "national-cultural thinking" and "worldview of Azerbaijanism".

***Rəyçi : dos. B.İ.Ələsgərov***
***ADPİ-nun Ağcəbədi filialının İctimai təbiət fənləri və onların tədrisi texnologiyası kaderasını 02 fevral 2023-cü il tarixli protokolundan çıxarış (pr №12)***
***Daxil olma tarixi 22 fevral 2023-cü il***

**UOT:94(479.24).**

## XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCAN BÖLGƏLƏRİNİN SOSİAL STRUKTURUNA DAİR
### (İrəvan, Naxçıvan, Şamaxı və Quba bölgələri üzrə)

***Əhmədova Yeganə Mehman qızı***
***Gəncə Dövlət Universiteti***
***yeganegdu@mail.ru***

**Xülasə:** *Məqalədə Rusiya işğalı dövründə İrəvan, Naxçıvan, Şamaxı və Quba xanlıqlarının inzibati-idarəçilik sistemində fəaliyyət göstərən müxtəlif təbəqələrin malik olduqları səlahiyyətlərdən və vəzifələrdən bəhs olunur. Məqalənin ümumi məzmunundan aydın olur ki, bəzi istisnalar olmaqla bu bölgələrin sosial strukturunda elə də ciddi fərq olmamış və ayrı-ayrılıqda bütün təbəqələrə malik olan vəzifələr demək olar ki, eyni olmuşdur. Xüsusilə göstərilən bölgələrdə bəy vəzifəsinə malik olanların kateqoriyaları bir-birindən çox fərqlənməmiş, yalnız Quba xanlığında bir qədər fərqli olmuşdur.*

**Açar sözlər:** sahibkar, kəndlilər, təbəqə, vəzifə, vergi
**Ключевые слова:** владелец, селчани, уровен, должность, налог
**Key words:** owner, villagers, layer, position, tax

XIX əsrin əvvəllərində Rusiya tərəfindən bir qədər tez işğal olunmuş Şamaxı və Quba xanlıqlarından fərqli olaraq, sonradan işğal edilmiş İrəvan və Naxçıvan xanlıqlarında xanların daxili idarəçilik hüququ daha uzun müddət saxlanılmış və həmin bölgələr öz qayda-qanunları və şəriət qaydalarına əsasən idarə olunmuşdur. Bu bölgələr bir qədər gec işğal olunduqlarına görə, öz mövcud sosial strukturunu müəyyən müddətə qədər qoruyub saxlaya bilmişdir.

Azərbaycan xanlıqları yaranan zaman müxtəlif xanlıqların ərazisində məskunlaşan əhalinin sosial-silki tərkibində spesifik xüsusiyyətlər meydana çıxmışdı. Bütün Azərbaycan xanlıqları əhalisinin sosial-silki tərkibi bir-birindən ciddi surətdə fərqlənmirdi. Xanlıqların əhalisi hakim silkə və aşağı təbəqəyə bölünürdü. Hakim silkin tərkibinə xanlar, bəylər, sultanlar, məliklər və ali müsəlman ruhaniləri daxil idilər. Aşağı təbəqə isə başlıca olaraq rəiyyət, rəncbər, elat və nökərlərdən ibarət idi. Xanlıq əhalisinin sosial strukturunda maaflar xüsusi mövqe tuturdular. Bəylər hakim silkin əsasını təşkil edərək, mühüm siyasi qüvvə hesab